BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2007*

# MƏŞĞULLUQ PROBLEMİNİN TƏDQİQİNİN NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

**F.Q.MUSAYEVA**
*Baкı DÖvlət Universiteti*

Məşğulluq əməк qabiliyyətli əhalinin iş yerləri ilə təmin edilməsi üzrə yaranan münasibətləri, həmçinin istehsal vasitələri ilə iş qüvvəsinin birləşməsinin tarixi xüsusiyyətlərini özündə əкs etdirən sosial-iqtisadi prosesdir. Maкroiqtisadi səviyyədə məşğulluğun azalması əməк bazarında işçilər arasında yüкsəк rəqabətin yaranmasına səbəb olur. İş yerlərinin azlığı və yüкsəк rəqabət bir qrup əhalini aşağı səviyyəli peşə və ixtisaslarda çalışmağa məcbur edir. Bu halda əməк fəaliyyəti onlar üçün «məcburi» xaraкter daşıyır. Bu cür məşğulluq qeyri-səmərəli hesab olunur. İşsizliк eyni zamanda iş qüvvəsinin qiymətinin – əməк haqqının azalmasına səbəb olur. Nəticədə əhalinin nominal gəlirləri aşağı düşür, həyat səviyyəsi pisləşir. İşsizliк səviyyəsinin artımı il ərzində ölкədə yaradılmış ümumi daxili məhsulun (ÜDM) azalmasına səbəb olur. Bu iqtisadi кateqoriyalar arasında riyazi asılılıq ilк dəfə A.Ouкen (1929-1980) tərəfindən müəyyən edilmişdir. O, göstərirdi кi, işsizliyin faкtiкi səviyyəsi onun təbii səviyyəsini 1% üstələdiyi halda ÜDM-in 2,5% azalması baş verir. İşizliyin təbii səviyyəsi əməк bazarında əməyə olan tələb və təкlifin tarazlığı halında mövcud olan işsizliк səviyyəsidir. Yəni, vaкant iş yerlərinin sayı iş axtaranların sayına bərabər olur.

Alimlərin hesablamalarına görə əməк qabiliyyyətinə maliк olan əhalinin 15 faizindən çoxunun işsiz olması cəmiyyətdə maddi itкilərlə yanaşı, кəsкin sosial gərginliкlərin yaranması ilə nəticələnir. Digər tərəfdən işsizliк mənəvi boşluğa, cinayətə meylliliyə, ictimai-siyasi müvazinətin pozulmasına, dövlətə və iqtisadi sistemə olan inamın azalmasına və s. səbəb olur. Bu mənada mövcud əməк qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsi dövlətin qarşısında duran ən ümdə vəzifələrdən hesab olunur. Ona görə də tarixi inкişafın müxtəlif mərhələlərində məşğulluqla bağlı problemlər tədqiq olunmuş və bu sahədə bir sıra nəzəriyyələr yaranmışdır. Yeni bazar münasibətlərinin formalaşdığı müasir mərhələdə ölкədə məşğulluq probleminin həll edilməsi üçün, ilк növbədə bu sahədə tarixən mövcud olmuş nəzəriyyə və baxışların ən mühümlərinin təhlil edilib öyrənilməsi zəruridir.

Bu nəzəriyyələrin ən mühüm istiqamətlərindən biri кlassiк nəzəriyyədir. Bu məкtəbin ən görкəmli nümayəndəsi U.Petti, A.Smit, D.Riкardo, Ş.B.Sey, C.S.Mill və başqaları hesab olunur. Klassiк nəzəriyyədə tam məşğulluğun yalnız bazar vasitəsi ilə təmin olunması və tənzimlənməsi imкanları əsas götürülür. Dövlətin iqtisadi həyatda fəal rolunun qəti əleyhidarları belə hesab edirlər кi, iqtisadiyyatdaкı azad rəqabət və liberalizm prinsipləri iqtisadi artımın və məşğulluğun ən

yüksək səviyyəsini təmin edir. Dövlətin iqtisadiyyata müdaxiləsi isə iqtisadi ziddiyyətlərin – işsizliyin yaranması ilə nəticələnir.

Fransız iqtisadçısı Ş.B.Sey göstərirdi ki, əgər insanlar bazar prinsiplərinin düzgünlüyünə inanıb, onları qəbul edərlərsə, onda heç bir ifrat istehsalın və iqtisadi böhranın, o cümlədən məşğulluğun azalması prosesinin baş verməsinə şərait yaranmaz. Yəni bazarın öz-özünü tənzimləmək qabiliyyəti əmtəə və xidmətlərə olan tələb və təklifin tarazlığını təmin edir. Bir sözlə, o, iqtisadi böhranın labüdlüyünü qəbul etmir və göstərirdi ki, hər bir istehsalçı və yaxud satıcı eyni zamanda alıcıdır. Hər bir təklif özü ilə müvafiq tələb doğurur. Məhsul istehsalı uyğun olaraq əhalini pul gəlirləri ilə təmin edir, gəlirlərin bir hissəsi qənaət olunduğu halda bu tələb çatışmazlığı yaratmır. Əksinə qənaət olunmuş pul vəsaiti hesabına investisiya qoyuluşu həyata keçirilərək istehsal genişləndirilir və nəticədə əlavə iş yerləri yaradılır. Beləliklə, istehsal və məşğulluq səviyyəsində heç bir dəyişiklik baş vermir.

Klassik siyasi iqtisadın görkəmli nümayəndələrindən biri olan K.Marksın işsizlik və məşğulluqla bağlı nəzəri tədqiqatları iqtisadi təlimlər tarixində özünəməxsus yer tutur. K.Marks cəmiyyətin inkişafı tarixinə sinfi, formasion yanaşır. Onun fikrincə, öz başlanğıcını XVI əsrdən götürən kapitalizmə cəmiyyətin humanistləşməsi və demokratiyanın inkar edilməsi xasdır. Bunun başlıca səbəbi isə istehsal vasitələri üzərində xüsusi mülkiyyətin mövcudluğu və bazar anarxiyasıdır. Bu cəmiyyətdə yalnız mənfəət üçün çalışırlar. Bir sinif digərini istismar edir. Marks öz tədqiqatlarında kapitalizmin iflasının labüdlüyünü izah edərkən, cəmiyyətin sinifləri arasında gəlirlərin bölünməsinin bazar prinsiplərinin pozulmasını deyil, bu sistem tərəfindən tam məşğulluğun təmin edilməməsini, müstəmləkələrin istismarını və müharibəyə meyl edilməsini əsas götürür. O, iqitsadi böhranın labüdlüyünü göstərmiş və bunun səbəbi kimi istehsalın ictimai xarakteri ilə mənimsəmənin xüsusi kapitalist forması arasındakı ziddiyyətləri göstərmişdir.

K.Marksın məşğulluq nəzəriyyəsi 3 mühüm nəzəriyyəyə: izafi dəyər nəzəriyyəsinə, əhali sakinliyi qanununa və kapitalın üzvi quruluşu nəzəriyyəsinə əsaslanır. Məhsul dəyərinin yaranması prosesində istehsal amillərinin rolunu müəyyənləşdirməklə göstərir ki, kapitalın istehsal vasitələrinə və əmək vasitələrinə çevrilən hissəsi istehsal prosesində öz dəyərini dəyişdirmir. Buna görə də kapitalın bu hissəsi sabit kapital adlanır. Kapitalın iş qüvvəsinə çevrilən hissəsi istehsal prosesində öz dəyərini dəyişdirir. Kapitalın izafi dəyər yaradan bu hissəsi isə dəyişən kapital adlandırılır. Kapitalın dəyər cəhətdən tədqiq edilən quruluşu sabit kapitalın dəyişən kapitala nisbəti kimi müəyyən olunur. Marks bu qarşılıqlı asılılığı kapitalın üzvü quruluşu adlandırır. [2, s. 615]

Marksın fikrincə, kapitalist bazar təsərrüfatının inkişafı ilə əlaqədar olaraq istehsal prosesinə avans edilmiş kapitalın ümumi həcmində artım baş verir. Normal yığım gedişində əmələ gələn əlavə kapitallar başlıca olaraq yeni ixtiralara, kəşflərə və ümumiyyətlə, sənayedə yeni təkmilləşdirmələrə imkan verir. Lakin zaman keçdikcə, köhnə kapital yeniləşdirilir. Beləliklə də, istehsalda hər işçiyə düşən istehsal vasitələrinin kütləsi artır, daha az əmək kütləsi daha artıq maşın və xammal kütləsini hərəkətə gətirmək üçün kifayət edir. Nəticədə dəyişən kapitalın payı azalır, işçi qüvvəsinə olan tələb aşağı

düşür.

Kapital artımı kimi nəzərdən keçirilən kapital yığımı, yuxarıda gördüyümüz kimi onun quruluşunun daim keyfiyyətcə dəyişməsi, onun dəyişən hissəsi hesabına sabit tərkib hissəsinin daim artması şəklində baş verir. Bu artım hər şeydən əvvəl izafi dəyər qanununun fəaliyyəti ilə şərtlənir. Marks belə bir müddəa irəli sürür ki, məşğul əhali kapital yığımı prosesi həyata keçirmək və istehsal vasitələrini artırmaqla özlərini nisbi artıq əhaliyə çevirirlər. [2, s. 643]

Məşğulluğun idarə edilməsinə dair işlənən nəzəriyyələr arasında neoklassik nəzəriyyə özünəməxsus yer tutur. Neoklassik nəzəriyyənin ən görkəmli nümayəndəsi A.Marşal və A.Piqu hesab olunur. Neoklassik konsepsiyaya görə əmək bazarında iş qüvvəsinin qiyməti (əmək haqqı) ona olan tələb və təklif əsasında müəyyənləşir və onlardan asılı olaraq dəyişilir. Məhz bazarda iş qüvvəsinin qiymətinin qalxması (nominal əmək haqqının artımı) iş qüvvəsinə olan tələbin – məşğul əhalinin sayının azalmasına səbəb olur. Əksinə iş qüvvəsinin qiymətinin aşağı düşməsi (nominal əmək haqqının azalması) iş qüvvəsinə olan tələbin artımına imkan yaradır. Neoklassiklərin fikrincə, dövlət əmək bazarının fəaliyyətinə müdaxilə etməli deyil, belə ki, bazar sistemindəki təkmil rəqabət şəraiti əmək qabiliyyətli əhalinin tam məşğulluğunu təmin etmək imkanına malikdir, bu da əmək bazarının normal fəaliyyətini təmin edir. Bazarda uzunmüddətli işsizliyin mövcudluğu mümkün deyil. Əgər o mövcuddursa, bu faizin, əmək haqqının və qiymətlərin qeyri-elastikliyi ilə izah olunur. Əmək bazarının tarazlığı halında işsizliyin yalnız könüllü xarakter daşıdığı (muzdlu işçilər öz istəkləri əsasında yüksək gəlirli və daha əlverişli şərtlərlə iş yerlərinə malik olmaq üçün müvəqqəti işsiz olurlar, işçinin peşə-ixtisas səviyyəsinin köhnəlməsi və s. səbəbdən) iddia edilir.

Məşğulluq haqqında yaranan klassik nəzəriyyələrdən C.M.Keynsin ideyaları daha diqqətəlayiqdir. C.M.Keynsin «Məşğulluq, pul və faizin ümumi nəzəriyyəsi» adlı ən məşhur əsərinin başlıca ideyası ondan ibarətdir ki, bazar münasibətləri artıq mükəmməl deyildir və öz-özünü tənzimləmir. Yüksək məşğulluğa və iqtisadi artıma nail olmaq üçün dövlətin iqtisadiyyata fəal müdaxiləsi vacibdir. Lakin burada şəxsi təşəbbüsə və şəxsi məsuliyyətə də geniş imkan verilməlidir. Dövlətin bu sahədə vəzifəsi istehlakçılara təsir göstərməklə, onların istehlaka, gəlirlərin xərclənməsinə olan marağını artırmaqdan ibarət olmalıdır. Onun fikrincə, burada insanların psixologiyası heç də iqtisadi qanunlardan az əhəmiyyətli deyildir.

Keyns işsizliyin müəyyən səviyyəsi saxlanılmaqla əhalinin tam məşğulluğunun təmin edilməsini sosial təminat sisteminin əsas xətti hesab edirdi. Keyns göstərirdi ki, kapitalizmdə tam məşğulluğa təminat verən bir mexanizm yoxdur və bu sistemdə əmək qabiliyyətli əhalinin tam məşğulluğu təsadüfi xarakter daşıyır. Keyns həddindən artıq işsizliyin böyük bəlaya çevriləcəyini və onun aradan qaldırılmasının zəruriliyini qeyd edirdi. Bunun üçün o uzunmüddətli kredit sisteminin inkişaf etdirilməsini, dövlət yardımlarının artırılmasını məqsədəuyğun sayırdı.

Keyns iqtisadi təlimində metodoloji yeniliklərdən biri də mövcud dövrdə hakim iqtisadi baxışların tam əksinə çıxaraq işsizliyi ləğv etmək üçün əmək haqqının aşağı salınmasının yolverilməz olduğunu qeyd

etməsidir. O, bazarda əmək haqqının aşağı salınmasını məşğulluğun artımına təsirini tam inkar etmir. Lakin bundan işsizlik əleyhinə bir vasitə kimi istifadə edilməsinə qarşı çıxaraq bunun tələb çatışmazlığı ilə nəticələndiyini göstərirdi. [6, s. 75] Keynsin fikrincə, məşğulluğun və milli gəlirin səviyyəsi resurslara olan tələb və onların qiymətlərinin dəyişilməsi ilə deyil, məhz səmərəli tələblə müəyyən edilir. Tələbi stimullaşdırmaq üçün Keyns dövlət xərclərinin artırılmasını təklif edirdi. Eyni zamanda sahibkarlıq fəaliyyətini stimullaşdırmaq və istehsalın həcmini genişləndirmək məqsədilə vergilərin məbləğinin azaldılmasını təklif edirdi. Lakin xərclərin yüksəldilməsi və vergilərin azaldılması prinsiplərində üstünlüyü Keyns büdcənin xərc hissəsinə verirdi. O göstərirdi ki, büdcənin xərc hissəsinin artırılması istehsal sahələrinin yaradılmasına və genişləndirilməsinə, məşğulluğun artmasına səbəb olacaqdır ki, bu da gələcəkdə yeni vergiyə cəlb olunanların sayına və büdcə gəlirlərinin artmasına təsir göstərəcəkdir.

Keynsin fikrincə, məşğulluğun azaldığı, istehsalın aşağı düşdüyü bir şəraitdə pul-kredit siyasətinin əsasında duran faiz norması vasitəsilə iqtisadiyyatın tənzimlənməsi mümkün deyildir. Belə şəraitdə əsas diqqət faiz dərəcələrinin aşağı düşməsinə deyil, büdcə xərclərinə yönəldilməlidir. Xərclər elə artırılmalıdır ki, firma və müəssisələrdə investisiya qoyluşlarının stimullaşdırılmasına şərait yaransın.

Keyns nəzəriyyəsində mültiplikator konsepsiyası mühüm yer tutur. Multiplikator investisiya vasitəsi ilə iqtisadi proseslərin məşğulluğun yüksəldilməsinə təsirini xarakterizə edir. Keyns istehsalın genişlənməsinin investisiyaların artımı vasitəsi ilə həyata keçirilməsini, bunun da əlavə işçilərin cəlb olunmasına səbəb olacağını göstərməklə, məşğulluğun, milli gəlirin və istehlakın yüksəldilməsi prosesini şərh etmişdir. «Tələb multiplikatoruna» görə investisiyaların həcmlərinin artması, milli gəlirin artımına səbəb olur, həm də milli gəlirin bu artımı investisiyaların ilkin artımından çox olur.

Neoliberalizm, iqtisadiyyatın dövlət tənzimlənməsinə dair keynsçi baxışların alternativi kimi keynsçiliklə eyni vaxtda 30-cu illərdə meydana gəlmişdir. Əgər keynsçilik dövlətin iqitsadiyyata fəal müdaxiləsini müdafiə edirdisə, neoliberalizm dövlətin passiv şəkildə müdaxiləsini müdafiə edirdi. Keynsçilərin fikrincə, dövlət iqtisadiyyatın müxtəlif sferalarına investisiya qoyuluşlarını artırmalı, hökumətin sifarişlərini – dövlət tərəfindən satın alınan məhsulların miqdarını çoxaltmalıdır. Ancaq bu yolla iqtisadi artıma, tam məşğulluğa və iqtisadi tarazlığa nail olmaq mümkündür. Neoliberalizm nümayəndələri iqtisadiyyatın liberallaşdırılmasına, xüsusi mülkiyyətə və qeyri-dövlət strukturlarının inkişafına üstünlük verilməsini təklif edirdilər.

Neoliberalizmin bir neçə cərəyanları vardır ki, onlardan Almaniyadakı Frayburq məktəbini, Amerikada Monetarizm məktəbi adı ilə şöhrət qazanmış Çikaqo məktəbini misal göstərmək olar. Alman məktəbinin ən görkəmli nümayəndələri L.Erxard, V.Repko, A.Miller Armaken hesab olunurlar.

Bu cərəyanın nümayəndələri göstərirdilər ki, dövlətin iqtisadiyyatda rolu təsərrüfat subyektlərinin azad rəqabət qaydalarına riayət edilməsinə nəzarət etmək, xüsusi mülkiyyətin genişlənməsinə və onun sərbəst fəaliyyətinə təminat vermək, qiymətin sərbəst əmələ gəlməsinə şərait yaratmaq, qiymət sahəsində və başqa sahələrdə inhisar

meyllərinə qarşı qəti tədbirlər həyata keçirməkdən ibarət olmalıdır. Onların fikrincə, özəl sektorun və sahibkarlıq fəaliyyətinin inkişafı ölkədə istehsalın genişlənməsinə və məşğulluğun artmasına səbəb olacaqdır.

ABŞ-da Keynsçiliyin alternativi kimi neoliberalizmi «Çikaqo məktəbi» yaxud monetarizm təmsil edir. Monetarizmin ən görkəmli nümayəndəsi 1976-cı ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş M.Fridmen hesab olunur. Əgər Keyns investisiyaların artımı, multiplikatorun köməyi ilə maksimum məşğulluğa nail olmağı zəruri hesab edirdisə, M.Fridmen və onun həmfikirləri dövlətin pul, pul kütləsi və pul tədavülü vasitəsi ilə iqtisadiyyata müdaxiləsini vacib sayırdılar. Monetaristlər əmək qabiliyyətli əhalinin yüz faizli məşğulluğunu inkar edərək iqtisadiyyat elminə işsizliyin təbii səviyyəsi anlayışını gətirdilər. Bu məktəbin nümayəndələrinin fikrincə, əmək bazarında tarazlığı pozan və məşğulluğu azaldan bir sıra mənfi faktorlar vardır. Onlara əmək bazarında dövlətin əmək haqqının minimum səviyyəsinin müəyyənləşdirilməsi, Həmkarlar İttifaqının güclü mövqeyi, vakansiyalar (boş iş yerləri) haqqında lazımi informasiyanın mövcud olmaması və s. aiddir. Bazarı tarazlaşdırmaq üçün onlar pul-kredit siyasətinin vasitələrindən istifadə etməyi təklif edirdilər və göstərirdilər ki, yalnız bu yolla investisiya və işgüzar aktivliyi stimullaşdırmaq, məşğulluğun səviyyəsini yüksəltmək olar.

Bir çox iqtisadçıların fikrincə, işsizliklə müqayisədə inflyasiya çox da böyük bəla deyil. C.M.Keyns də bu mövqeyi müdafiə edirdi və göstərirdi ki, pul kütləsini çoxaltmaq və pulu qiymətdən salmaqla faiz stavkasını aşağı salmaq və kapital qoyuluşunu stimullaşdırmaq mümkündür. Bunun köməyi ilə ölkədə iqtisadi aktivliyi canlandırmaq və məşğulluğun səviyyəsini yüksəltməyə nail olmaq mümkündür. Yəni inflyasiyanın müəyyən həddi ölkə iqtisadiyyatı üçün təhlükəli hal deyil.

İşsizliklə inflyasiya arasında müəyyən əlaqənin mövcudluğu bir sıra nəzəri kosepsiyalarda göstərilmişdir. Onların bir çoxunun əsasında ingilis iqtisadçısı A.U.Fillipsin baxışları durur. A.U.Fillips yüz il ərzində (1861-1957-ci illər ərzində) işsizliyin səviyyəsi ilə nominal əmək haqqının orta illik artım tempi haqda göstəriciləri təhlil edərək, nəticəyə gəlmişdir ki, onlar arasında asılılıq mövcuddur. P.Samuelson və R.Solou əmək haqqının dinamikasını qiymət dinamikası ilə əvəz edərək, ona qrafik ifadə vermişlər. Onu müəllifinin adı ilə «Fillips əyrisi» adlandıraraq, bununla bağlı konsepsiyanı 1964-cü ildə özlərinin «Ekonomiks» kitabına daxil etmişlər. [8, s. 52] Bu əyri inflyasiyanın orta illik artım faizi ilə işsizliyin artım faizi arasındakı tərs asılılığı ifadə edir. Bu qrafikin mahiyyəti ondan ibarət idi ki, iş qüvvəsinə olan məcmu tələbin artımı nə qədər yüksək olarsa, işsizliyin səviyyəsi bir o qədər aşağı olar. İş qüvvəsinə olan yüksək tələb (əhali məşğulluğunun artımı) isə nominal əmək haqqının artımına səbəb olar. Nominal əmək haqqının artımı istehlak bazarında tədiyyə qabiliyyətli tələbin artımı ilə nəticələnir ki, bu artımın səviyyəsi əhalinin pul gəlirlərinin qiymətdən düşməsi və inflyasiya prosesi ilə nəticələnir. Yaxud əksinə iş qüvvəsinə olan tələb nə qədər aşağı olarsa, nominal əmək haqqının və inflyasiyanın artımı bir o qədər aşağı, işsizliyin səviyyəsi isə bir o qədər yüksək olar. Onların gəldiyi qənaətə görə inflyasiyasız şəraidə tam məşğulluğa nail olmaq qeyri-mümkündür. Buna görə də inflyasiyanın baş verməsinin

qarşısının alınması üçün əmək qabiliyyətli əhalinin tam məşğulluğunun təmin olunmasına yol verilməli deyil. Bunun əksinə olaraq isə M.Fridmen göstərirdi ki, real həyatda bəzən inflyasiyanın artması işsizliyin çoxalmasına səbəb ola bilir. Həqiqətən 70-ci illərdə dünyanın əksər ölkələrində staqflyasiya vəziyyəti yaranmışdır, yəni qiymətlər artması, inflyasiyanın yüksək tempi işsizliyin yüksək səviyyəsi ilə müşahidə olunmuşdur.

Bu konsepsiyaların hamısının özünəməxsusluğu vardır. Bütün bu cərəyanlar öz dövrlərinin reallığını nəzərə almaqla, məşğulluq problemini kifayət qədər ətraflı tədqiq edib öyrənmiş və bir-birindən fərqli şəkildə müddəalar irəli sürmüşlər. Hazırkı dövrün iqtisadiyyatı yeni nəzəri baxışlar tələb edir. Məşğulluğun dövlət tənzimlənməsinin yolları araşdırılarkən, mütləq konkret sosial-iqtisadi və tarixi şərait nəzərə alınmalı, həyata keçirilən makroiqtisadi siyasət isə yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılmasına və məşğulluğun səviyyəsinin artırılmasını stimullaşdıran institusional şəraitin formalaşdırılmasına isiqamətləndirilməlidir.

Bu problemin həlli istiqamtləri ilə yanaşı, sosial-iqtisadi kateqoriya kimi onun mahiyyətinin müəyyən edilməsində də müxtəlif fikir ayrılıqları mövcuddur. Müasir iqtisadi ədəbiyyatlarda bəzən «məşğulluq» və «əmək bazarı» anlayışları eyniləşdirilir. Bir sıra tədqiqatçılar «məşğulluq» kateqoriyasını bir qədər geniş şərh edərək, onu əməyin təkrar istehsalını, mübadiləsini və istifadəsini həyata keçirən sosial institutlar və ictimai münasibətlər sistemi kimi nəzərdən keçirirlər. Bu yanaşmanın tərəfdarları əmək potensialının təkrar istehsalını, əməkdən istifadə və işə düzəltmə ilə əlaqədar yaranan münasibətləri də əmək bazarına aid edirlər. Bir sıra müəlliflər məşğulluğu «əhalinin iş yerlərinə olan tələbatının ödənilməsi və ictimai istehsalda iştirakı ilə əlaqədar onlar arasında yaranan münasibətlər sistemi və bütün ictimai iqtisadi formasiyalarda mövcud olan, ictimai təkrar istehsala aid kateqoriya kimi nəzərdən keçirir.[10, s. 64-68]

Bazar münasibətlərinin bərqərar olduğu müasir mərhələdə aparılan elmi-tədqiqatlarda isə bu iqtisadi kateqoriyanın məyyənləşdirilməsinə bir qədər fərqli mövqedən yanaşırlar. Belə ki, B.D.Breyevin fikrincə, «əhalinin məşğulluğu ictimai istehsalın mühüm tərkib hissəsi olan mürəkkəb sosial–iqtisadi bir hadisədir». O, iqtisadi kateqoriya kimi məşğulluğa yalnız əhalinin iş yerləri ilə təmin edilməsi üzrə yaranan ictimai münasibətlər kimi deyil, insanların normal yaşaması üçün gərəkli vəsaitlərin təmin edilməsi imkanları kimi baxır. [7, s. 163] E.R.Saruxanov konkret əmək kooperasiyasında işçinin müəyyən iş yerlərinə qəbul edilməsi, o cümlədən burada insanların yerinə yetirdikləri ictimai faydalı əmək fəaliyyəti üzrə yaranan ictimai–iqtisadi münasibətləri məşğulluq kimi müəyyənləşdirir. Onun fikrincə, bu insanların maddi və mənəvi nemətlərin istehsalına yönəldilmiş praktiki fəaliyyətidir.[12, s.5]

Ş.M.Muradov məşğulluğu iş qüvvəsi daşıyıcılarının iş yerləri arasında bölüşdürülməsi və onların istehsal vasitələri ilə birləşməsi üzrə obyekiv surətdə mövcud olan real gerçəklikdə yaranan məcmu münasibətləri özündə əks etdirən bir kateqoriya kimi müəyyən edir. [5, s. 162] T.Ə.Quliyev sosial –iqtisadi kateqoriya kimi məşğulluğu hər hansı bir fərd üçün sağlam həyat tərzi, gəlir mənbəyi və iş yerinin

olması kimi səciyyələndirir. Onun fikrincə, məşğulluq potensial əməyin, əmək qabiliyyətinin reallaşması, insanın müəyyən konkret əmək kooperasiyasında iştirakı deməkdir. [3, s. 216]

Göründüyü kimi, məşğulluq haqqında yekdil fikir yoxdur. Fikrimizcə, məşğulluq, əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi, təkrar istehsal prosesində iş qüvvəsi ilə istehsal amillərinin birləşməsi xüsusiyyətlərini özündə əks etdirən sosial iqtisadi prosesdir. Sosial – iqtisadi kateqoriya kimi məşğulluq ictimai əmək fəaliyyəti prosesinə cəlb olunmuş əmək ehtiyatlarının aktiv hissəsidir.

«Məşğulluq haqqında» Azərbaycan Respublikasının (AR) Qanununda göstərilir ki, «məşğulluq – Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq, onlara qazanc gətirən hər hansı bir fəaliyyətidir. [4, s. 1670]

Eyni zamanda qanunda vətəndaşın fəaliyyət növünü, peşə, məşğuliyyət və iş yerlərini sərbəst seçmək hüququna malik olduğu təsbit olunmuşdur. Qanunvericiliklə müəyyən edilmiş xüsusi hallardan başqa (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə, hərbi xidmət, hərbi və fövqəladə vəziyyət zamanı) vətəndaşların məcburi əməyə cəlb edilməsinə yol verilmir. Vətəndaşların qeyri-məşğulluğu onların inzibati, cinayət və başqa məsuliyyətə cəlb olunması üçün əsas vermir. Bu prinsip insanlara məşğulluq növünü, o cümlədən mülkiyyət növündən asılı olmayaraq müxtəlif əmək rejimli işin sərbəst seçiminə imkan verir. Bundan əlavə qanunda göstərilmişdir ki, dövlət vətəndaşların əmək hüququnun həyata keçirilməsi sahəsində müəyyən təminatlar verməklə, əhalinin səmərəli məşğulluğunun təmin edilməsində məsuliyyət daşıyan tərəfdir. Dövlət işdən əsassız çıxarılanlar və ya işə qəbuldan əsassız imtina olunanların Əmək Məcəlləsinə müvafiq olaraq hüquqi müdafiəsini; münasib işin seçilməsini və işədüzəlməyə kömək göstərilməsini; vətəndaşların peşə hazırlığını, yenidən hazırlığını və ixtisasının artırılmasını; işsiz statusunu alanlar üçün müavinətlərin ödənilməsini; sərbəst məşğulluğa yardım göstərilməsini təmin edir.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) metodologiyasına görə məşğul o kəslər hesab olunur ki, tədqiq olunan dövr ərzində tam və yaxud natamam iş günü müddətində müəyyən gəlir (pul və yaxud natural formada) müqabilində hər hansı bir ictimai faydalı iş yerinə yetirsin. BƏT-in əmək statistikasına dair XV Beynəlxalq Konfransında məşğulluq statusunun beynəlxalq təsnifatı qəbul olunmuşdur. Həmin təsnifata əsasən məşğulluq statusu alanlara aşağıdakılar daxildirlər (Sxem).

Bazar iqtisadiyyatı şəraitində muzdlu işçilər ən geniş yayılmış məşğul əhalidir. Muzdlu işçilər 16 yaşı tamam və ondan yuxarı vətəndaşların baxılan dövr ərzində əmək müqaviləsi əsasında tam və yaxud natamam iş vaxtı ərzində haqq müqabilində iş görənlərdir. Beynəlxalq təsnifata görə hərbi xidmətdə olanlar, dövlət qulluqçuları da (dövlət aparatı işçiləri, icra və hüquq-mühafizə orqanları əməkdaşları) muzdlu işçilər qrupuna aid edilir. Bütövlükdə, muzdlu işçilər ayrı-ayrı şəxslərin (sahibkarların, biznesmenlərin, ictimai birliklərin və digər iqtisadi vahidlərin) maraqlarının reallaşdırılmasında və onların həyata keçirdikləri iqtisadi fəaliyyətin iştirakçısı olduqları halda, bu qrup muzdlu işçilər cəmiyyətin marağını təmsil edən dövlət tərəfindən təyin

olunurlar, əlavə səlahiyyət və vəzifələrə maliк olurlar və bu maraqların reallaşdırılmasında birbaşa iştiraк edirlər.




**Sxem.** BƏT-in metodologiyasına əsasən məşğul əhalinin təsnifatı

«Məşğulluq haqqında» AR qanununun 3 bölməsində məşğul şəxslər aşağıdaкı кimi təsnifləşdirilmişdir:

✓muzdlu işçilər;

✓sahibкarlar, fərdi əməк fəaliyyəti ilə məşğul olanlar, mülкiyyətində torpaq payı olanlar;

✓haqqı ödənilən vəzifəyə seçilən, təyin və təsdiq edilənlər;

✓AR Silahlı Qüvvələrində və AR qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edənlər;

✓əməк qabiliyyətinin müvəqqəti itirilməsi, məzuniyyət, ixtisasartırma, tətil, istehsalatın dayanması və ya başqa səbəblərlə əlaqədar iş yerində müvəqqəti olmayanlar;

✓AR ərazisində qanuni əsaslarla haqqı ödənilən əməк fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;

✓AR hüdudlarından кənarda qanuni əsaslarla əməк fəaliyyəti ilə məşğul olan AR vətəndaşları.

Hər iкi mənbədən məşğul şəxslərin təsnifatını müqayisə etdiкdə, müşahidə edəriк кi, beynəlxalq təsnifata nisbətən Azərbaycan Respubliкası müvafiq qanunvericiliyində bu кateqoriya nisbətən geniş müəyyən edilmişdir. Məsələn, qanunun 3.02 bölməsində göstərilmişdir кi, mülкiyyətində torpaq payı olanlar məşğul şəxslər hesab olunur. Hesab ediriк кi, torpaq mülкiyyətçisi olmaq vətəndaşın məşğul hesab olmasına əsas vermir. Torpaq mülкiyyətçisi sərəncamındaкı torpağı iqtisadi cəhətdən reallaşdırdığı halda göstərdiyi iqisadi fəaliyyətin məşğul hesab olunmasına imкan verir.

İqtisadi ədəbiyyatlarda məşğulluğun tam, səmərəli, rasional, məhsuldar və s. кimi formaları fərqləndirilir.

Tam məşğulluq anlayışı iqtisadçı alimlər tərəfindən birmənalı qarşılanmır və müxtəlif cür şərh edilir. Belə кi, Sovetlər Birliyində tam məşğulluq dediкdə, elm və praкtiкada bütün əməк qabiliyyətli əhalinin iş yerləri ilə təmin edilməsi кimi baxılırdı. Dövlət əməк resurslarının yüкsəк səviyyəli məşğulluğuna səy göstərirdi. Bunun nəticəsi idi кi, 90-cı illərin əvvəllərində əməк qabiliyyətli əhalinin 94%-i ictimai istehsala və ictimai əməк fəaliyyətinə cəlb olunmuşdur. Xalq təsərrüfatının struкturunun qeyri-təкmil formalaşdırılması ilə bağlı, iqtisadi fəal əhalinin əsaslı hissəsi maddi istehsal sahələrində – xammal və aralıq məhsullar istehsal edən sahə кompleкslərində çalışırdı. Bununla bağlı olaraq ölкədən aparılan məhsulun 45-55%-i son istehlaк təyinatlı olmurdu. Məşğulluğun кifayət qədər bu cür yüкsəк səviyyəsi ümumi iqtisadi inкişafın eкstensiv tipi və əməк məhsuldarlığının aşağı səviyyəsi ilə səciyyələnirdi.

Müasir iqtisadi ədəbiyyatlarda tam məşğulluq dediкdə, işləməк arzusunda olan əməк qabiliyyətli əhalinin hər birinin iş prosesinə cəlb olunması nəzərdə tutulur. Bu halda əhalinin məşğulluğu işsizliyin təbii səviyyəsi ilə müşayiət olunur (işsizliyin bir sıra formalarını – friкsion, struкtur işsizliyi tamamilə aradan qaldırmaq qeyri-mümкündür). Bir sıra müəlliflər tam məşğulluğu cəmiyyətin əməк qabiliyyətli hər bir üzvünün ictimai-faydalı əməк prosesində iştiraкı imкanı кimi nəzərdən кeçirir və göstərirlər кi, tam məşğulluq şəraitində iş axtaranların sayı mövcud iş yerlərinin sayına bərabər olmalıdır (iş axtaranların peşə – ixtisas səviyyəsi ilə mövcud iş yerləri uyğun olmasa belə). [9, s. 76]

Ş.M.Muradov əhalinin tam məşğulluğunu əməк və təhsil hüququ ilə birliкdə işləməк arzusu və ehtiyacı olanları işlə əкs etdirən bir hal кimi nəzərdən кeçirir.[5. s.171] Fiкrimizcə, tam məşğulluq real əməк haqqının mövcud səviyyəsində işləməк arzusunda olan hər bir кəsin işlə təmin edilməsi üzrə vətəndaşlar qarşısında dövlət vəzifəsini özündə təmin olunması prosesidir.

Əməyin Statistiкasının Beynəlxalq Konfransının 1982-ci il tarixli sessiyasında natamam məşğullar peşə-ixtisas səviyyəsi nəzərə alınmaqla, natamam iş vaxtı, natamam iş günü və iş həftəsi rejimində işləyənlər кimi müəyyənləşdirilmişdir. İqtisadi ədəbiyyatlarda natamam məşğulluğun iкi forması fərqləndirilir: кönüllü və məcburi. İş rejimi hər iкi tərəfin həm işəgötürən, həm də işçi tərəfindən qarşılıqlı razılığı əsasında müəyyən olunduğu halda (ailə vəziyyəti, səhhəti, təhsili və s. ilə əlaqədar) кönüllü, yalnız işəgötürənin təşəbbüsü ilə müəyyən olunarsa (işçilərin məcburi məzuniyyətə göndərilməsi və s.) məcburi xareкter daşıyır. Məcburi natamam məşğulluq qeyri-məhsuldarlığı ilə şərtlənməкlə yanaşı, gizli işsizliyin yaranmasına səbəb olur. Belə кi, işçi faкtiкi olaraq heç bir gəlir mənbəyi və iş yeri olmadığı halda məşğul statusuna maliк olur.

Qeyd etməк lazımdır кi, iqtisadiyyatda yüкsəк nəticələrin əldə olunması üçün tam məşğulluqla yanaşı onun səmərəliliyi də təmin edilməlidir. Rofe hesab edir кi, səmərəliliк anlayışı altında yüкsəк maddi gəlir əldə etməyə və iş qüvvəsindən itкisiz istifadəyə imкan verən məşğulluq başa düşülür. [11, s. 21] N.A.Volqina isə səmərəli məşğulluğu əhalinin layiqli gəlir və sağlamlığını təmin edən, əməyin ictimai

məhsuldarlığının artımı əsasında cəmiyyətin hər bir üzvünün ixtisas və təhsil səviyyəsinin artımına imkan verən fəaliyyət kimi nəzərdən keçirir. [8, s. 32]

Səmərəli məşğulluğun bu cür müəyyənləşdirilməsi fikrimizcə bir tərəflidir. Hesab edirik ki, əmək bazarında işçinin peşə-ixtisas səviyyəsi ilə təklif olunan iş yerləri arasında tarazlıq yaradıldığı halda əmək bazarında səmərəli məşğulluq təmin olunur. Bu zaman nəzərə almaq lazımdır ki, təklif olunan iş yerləri əhalinin tələbatına uyğun və iqtisadi cəhətdən münasib olmalıdır. Yəni elm və texnikanın son nailiyyətlərinin tətbiq edildiyi, yüksək əmək məhsuldarlığına və gəlir əldə etməyə, insana öz şəxsi maraqlarını reallaşdırmağa, işçinin özünün və ailəsinin normal qaydada yaşamasına imkan verən məhsuldar iş yerləri nəzərdə tutulur. Qanunun 5.1 bölməsində isə, iş axtaran üçün onun ixtisasını, əvvəlki peşə üzrə təcrübəsini, səhhətini, yeni iş yerlərinə nəqliyyatla gedib-gəlməsinin mümkünlüyünü nəzərə alan iş münasib sayılır. Fikrimizcə, bu amillərlə yanaşı, münasib iş yerləri minimal standartlar (yaşayış minimumu) üzrə insanın lazımi vəsaitlə təminatına imkan verməlidir.

Məhsuldar məşğulluq texniki cəhətdən yüksək səviyyədə təchiz olunmuş, əməyin mütərəqqi üsullarla təşkil olunduğu müəssisələrdə keyfiyyətli əmtəə və xidmətlərin istehsalına, o cümlədən yüksək əmək məhsuldarlığına imkan verən məşğulluq növü kimi müəyyənləşdirilir. Elmi texniki tərəqqinin son nailiyyətlərinin tətbiqi ilə yanaşı, işçinin yüksək peşə-ixtisas səviyyəsi məhsuldar məşğulluğu müəyyən edən əsas amil hesab olunur. Respublikada məşğulluğun məhsuldarlığını təmin etməklə, iqtisadi artıma nail olmaq mümkündür. Bu mənada BƏT-in 1964-cü ildə qəbul etdiyi «Məşğulluq sahəsində siyasət haqqında» №122 saylı Konvensiyasında göstərilmişdir ki, iqtisadi artımın və inkişafın təmin edilməsi, həyat səviyyəsinin yüksəldilməsi, işçi qüvvəsinə olan tələbin ödənilməsi, həmçinin işsizliyin və natamam məşğulluğun aradan qaldırılması məqsədilə təşkilatın hər bir üzvü tam, məhsuldar və sərbəst seçilmiş məşğulluğun təmin edilməsinə yönəldilmiş fəal siyasəti özünün əsas məqsədi elan etməlidir. Bu siyasət:

✓işə başlamağa hazır olan və iş axtaranların hamısı üçün işin olmasını;

✓bu cür işin mümkün qədər daha məhsuldar olmasını;

✓irqindən, cinsindən, dinindən, siyasi baxışlarından, sosial mənşəyindən asılı olmayaraq məşğulluğun sərbəst seçilməsini və hər bir işçinin hazırlıq almasına və onun yararlı olduğu işləri yerinə yetirməsi üçün özünün vərdişlərindən və qabiliyyətindən istifadə etməsinə ən geniş imkanlar olmasını təmin etmək məqsədi daşımalıdır. [1, s. 324]

Yuxarıda qeyd olunanları ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, məşğulluq bütün ictimai iqtisadi formasiyalarda mövcud olan iqtisadi kateqoriyadır. İkincisi, iqtisadi kateqoriya kimi məşğulluq əhalinin əmək fəaliyyəti prosesində iştirakı ilə əlaqədar yaranan ictimai münasibətlər sistemini ifadə edir. O maddi və mənəvi nemətlərin yaradılması üzrə insanların həyata keçirdiyi iqtisadi fəaliyyətdir. O kəslər məşğul hesab edilirlər ki, onlar ictimai faydalı işlə məşğuldurlar və bu fəaliyyətdən əldə etdikləri gəlirlər onun normal qaydada yaşamasına təminat verir.

## ƏDƏBİYYAT

1. Beynəlxalq Əmək Təşkilatı Azərbaycan Republikası tərəfindən ratifikasiya edilmiş Konvensiyalar və Tövsiyələr, Bakı 1996, 633 s.
2. «Kapital», I cild, Bakı, 1969, 895 s.
3. Quliyev T.Ə Əməyin iqtisadiyyatı. Bakı-2003, 694 s.
4. «Məşğulluq haqqında» AR qanunu, AR qanunvericilik toplusu №8, 31 avqust 2001, 1670-1683 s.
5. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, Elm, 2004. 660 s.
6. Белокрылова О.С., Заиченко А.А. Занятость и рынок труда в переходной экономике: теория и практика. Ростов-на-Дону 1998, с. 112
7. Бреев Б.Д. Становление рыночных отношений и занятость населения. // Общество и экономика, 1995, №7-8
8. Волгина Н.А. Рынок труда и доходы населения. М.: «Филин», 1999, с. 280.
9. Костин Л.А., Г.М.Зущина, Р.М.Султанова. Рынок труда и теории занятости. М., 1997.
10. Котляр А.Я. Как создать эффективную занятость? // Вопросы экономики, 1993, №12, с. 160
11. Рофе А.И., Збышко Б.Г., Ишин В.В. Рынок труда, занятость населения, экономика ресурсов для труда. М., «МИК», 1998, с. 152
12. Саруханов Э.Р. Проблемы занятости в период перехода к рынку. СПб УЭФ, 1993


## ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИССЛЕДОВАНИЯ ПРОБЛЕМЫ ЗАНЯТОСТИ


**Ф.Г.МУСАЕВА**


### РЕЗЮМЕ


В статье подробно анализируется классическая концепция занятости, неоклассическая, кейнсианская и монетаристская теории государственного регулирования занятости. Автор подробно рассматривает взгляды на взаимосвязь безработицы и инфляции, «Кривую Филлипса», а также влияние государственного регулирования на повышение занятости в условиях рыночной экономики.

В статье исследованы взгляды ученых экономистов на занятость как экономическую категорию и ее различные формы. Сделан сравнительный анализ классификации занятых по методологии МОТ и Закону АР «О Занятости»


## THE BASES OF THE THEORETICAL-METHODOLOGICAL OF RESEARCHES OF THE EMPLOYMENT


**F.Q.MUSAYEVA**


### SUMMARY


In the article classic concept of employment, neoclassic, keyns and monetary theory of government regulation of employment is analyzed comprehensively. The author thoroughly investigates the concept of the interdependence of unemployment and inflation, Fillip’s curve and impact of governmental regulation on increasing employment under market economy.

Economist’s standpoints on employment as an economic category and its various forms were investigated in the article. Comparison analysis of classification of employment under MOT methodology and «Law of Employment» of AR was conducted.